Xalq qəzeti.-2022.- 6 yanvar.- S. 5

# ZƏFƏR OVQATLI YENİ İL

***2020**-ci ilin sentyabr ayının sonu və noyabr ayının əvvəllərində – cəmi 44 gün ərzində əldə olunan "Zəfər Günü" bayramı 60 milyona yaxın Dünya Azərbaycanlıları arasında tarixdə misli görünməmiş əlahiddə bir ovqat yaratdı. Bu ovqatı dünya azərbaycanlılarına, xalqımıza, millətimizə bütün gözəllikləri ilə bəxş edən hamının sevimli lideri, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Heydər oğlu Əliyev oldu.*



Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətini özünəməxsus müdriklik və dahiyanəliklə davam etdirən, onun səmərəli istiqamətlərini hər addımda, hər sahədə əyani olaraq həyat fəaliyyətinə uğurla tətbiq edən zati-aliləri möhtərəm cənab İlham Əliyev bu möhtəşəm siyasəti özünün fərdi erudisiya zənginləikləri süzgəcindən keçirərək sözün həqiqi mənasında xarüqələr yaratdı. O, 30 ilə yaxın bir müddətdə Azərbaycan torpaqlarını işğal altında saxlayan erməni terrorçuları ilə yanaşı, onların mənfur havadarlarının da iç üzünü aşkar edərək tutarlı faktlarla dünyaya tanıtmağı layiqincə həyata keçirdi. Bu yol nə qədər çətin, nə qədər keçilməz olsa da, cənab İlham Əliyev qarşısına çıxan bütün sədləri aşmağı, keçilməz görünən bütün stereotipləri bircə anda darmadağın etməyi bacardı.

O, Birləşmiş Millətlər Təşkilatının, Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun edə bilmədikləri və etmək istəmədiklərini elə onların gözləri önündə heyrətamiz bacarıqla icra etdi. Dahi Heydər Əliyev siyasətinin həm incəliklərindən, həm qranit dağları belə yarıb keçə bilən kəsərliyindən, həm də bəşərilik və dünyəvilik platformasından güc alan cənab İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə dünyanı xoş məramla heyran qoydu. O, hər addımını, hər hərəkətini, cilalanmış siyasətini zərgər dəqiqliyi ilə nizamlayaraq, Azərbaycanın erməni işğalı altında inləyən torpaqlarını yaratdığı məğlubedilməz Müzəffər Ordumuzun, Azərbaycan Silahlı Qüvvələrinin rəşadəti sayəsində Böyük Qələbəyə imza atdı. Bu qələbə Dünya Azərbaycanlılarının monolitliyi, həmrəyliyi sayəsində həyata keçirildi. Bununla da Heydər Əliyev ideyalarının təntənəsi İlham Əliyevin "Dəmir Yumruq" möcüzəsi ilə göyün yeddinci qatına qalxdı. Ümummilli Liderin uzaqgörənliklə təsis etdiyi 31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik günü bayramı bütün dolğunluğu ilə atəşfəşanlıq saçaraq ürəkləri, qəlbləri öz həlim hərarəti ilə isidə bildi.

"Zəfər Günü" bayramını xalqımıza bəxş edən, Xocalı soyqırımı qurbanlarının qanını yerdə qoymayan Qəhrəman Şəhidlərimiz daim bizimlə bir yerdə, bizimlə bir cərgədə, bizimlə bir səngərdədirlər. Eşq olsun Vətən uğrunda qəhrəmanlıq göstərərək Vətən torpağını öz qanları ilə suvaran şəhidlərə və onları vətənpərvərlik, vətənsevərlik duyğuları ilə böyüdən Azərbaycan analarına, Azərbaycan atalarına. Bu gün biz həm şəhidlərimizin ruhu qarşısında, həm də onları vətənpərvərlik ruhunda böyüdən anaların, ataların yenilməz vüqarı qarşısında baş əyirik.

Bu gün biz həm də böyük ruh yüksəkliyi ilə, xoşbəxtliklə yaşadığımız 2021-ci ili xoş niyyətlərlə yola salır, Yeni təqvim ilini – 2022-ci ili yeni diləklərlə, yeni arzularla qarşılayırıq. 2021-ci il Vətən müharibəsindən – Azadlıq müharibəsindən sonrakı dövrün quruculuq illərinin təməlini qoydu. Möhtərəm cənab Prezident İlham Əliyevin və Birinci vitse–prezident Mehriban xanım Əliyevanın birgə fəaliyyəti ilə təşəkkül tapan Prezident – xalq birliyinin yaratdığı tarixi "Dəmir Yumruq" postmüharibə dövründə də daim fəaliyyətdədir və istənilən anda öz xeyirxah gücünü, regionda sülhü bərqərar etməyin yollarını göstərməkdədir. Bu ilin dekabr ayının 17-də cənab İlham Əliyevin Brüsseldə keçirdiyi tarixi görüşləri, mükəmməl çıxışları, "Azadlıq Radiosu"nun müxbiri jurnalist Rikardo Jozvivakın suallarını məntiqli cavablandırmaları təkcə Azərbaycanda deyil, dünyada və Ermənistanda da böyük rezonans doğurdu. Həftənin sensasiyası adlandırılan bu görüşlər, bu çıxışlar cənab Prezidentə yenidən Beynəlxalq aləmdə yeni qələbələr qazandırdı, onun nüfuzunu zirvələrə yüksəltdi.

2021-ci il həm də Azərbaycan Respublikasının son dərəcə əlamətdar sayılan böyük bir tarixi hadisəsinə şahidlik edir. Yola saldığımız il Azərbaycan xalqının xilaskarının, Ali Baş Komandanın, Silahlı Qüvvələrimizin yenilməz Sərkərdəsinin, cənab Prezident İlham Əliyevin anadan olmasının 60 illik yubiley ilidir. Xalqımız xoşbəxtdir ki, öz liderinin şərəfli yubileyini onun özünün xalqa bəxş etdiyi "Zəfər Günü" Bayramının sədaları altında fəxrlə qeyd edir. Müdrik xalqımızın təbriklərinə qoşularaq mən də mənə verilən fürsətdən istifadə edərək bir daha cənab Prezident İlham Əliyevi anadan olmasının 60 illik şərəfli yubileyi münasibətilə ölkəmizin bütün səhiyyə işçiləri adından və öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Mən bu gün böyük məmnuniyyətlə Qalib Prezidentimiz cənab İlham Əliyev və Qalib vitse–prezident Mehriban xanım Əliyeva başda olmaqla xalqımızı, millətimizi Yeni – 2022–ci təqvim ilinin gəlişi və 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə ürəkdən təbrik edir, hamıya möhkəm cansağlığı, xoşbəxtlik, səadət diləyir, yeni uğurlar, yeni müvəffəqiyyətlər arzulayıram.

***ƏHLİMAN ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik, SSRİ Dövlət mükafatı laureatı***